**Alber Kamü**

# SİZİF HAQQINDA MİF

Tərcüməçi:
Həbib Həbiboğlu

qanun nəşriyyatı

**Albert Camus**

# LE MYTHE DE SISYPHE

“Həyat mənasızdırsa, yaşamağa dəyərmi?” Əsər bu sual ətrafında qurulur. Kamü bu sualı fəlsəfənin əsas problemi kimi təqdim edir və intiharı yeganə ciddi fəlsəfi problem adlandırır.

Müəllif antik yunan mifologiyasındakı Sizif obrazını absurd insanın simvoluna çevirir. Tanrılar tərəfindən əbədi olaraq daşı dağın zirvəsinə qaldırmağa məhkum edilən Sizif, hər dəfə daşın yenidən aşağı yuvarlandığını görür. Kamüyə görə insan həyatı da eyni dövriliyə və mənasızlığa malikdir. Lakin müəllif bu mənasızlıq qarşısında təslim olmağı deyil, şüurlu üsyanı, yəni absurdu dərk edərək yaşamağı təklif edir. Əsərin məşhur nəticəsi belədir: “Sizifi xoşbəxt təsəvvür etmək lazımdır”.

“Sizif haqqında mif” Alber Kamünün absurd fəlsəfəsinin əsas mətnlərindən biridir.

# MÜNDƏRİCAT


ABSURD MÜHAKİMƏ ........................................................ 6

ABSURD VƏ İNTİHAR ........................................................ 7

ABSURD DİVARLAR ........................................................ 15

FƏLSƏFİ İNTİHAR ........................................................ 37

ABSURD AZADLIQ ........................................................ 62

ABSURD İNSAN ........................................................ 81

DONJUANLIQ ........................................................ 85

TEATR ........................................................ 94

FƏTHETMƏ ........................................................ 102

ABSURD YARADICILIQ ........................................................ 112

GƏLƏCƏYİ NƏZƏRƏ ALMAYAN YARADICILIQ ........ 133

SİZİF HAQQINDA MİF ........................................................ 139

# ABSURD MÜHAKİMƏ

“Könül, əbədi həyata can atma, amma nə mümkündürsə, onu sərf edib qurtarmağa çalış”.

Pindar. “Pifi nəğmələri” ( III, 62–63)

Aşağıdakı səhifələrdə söhbət bizim dövrümüzdə yaxşı məlum olmayan absurd fəlsəfəsi haqqında yox, müasir zamanda hər yerdə rast gəldiyimiz absurd hissdən gedir. Bəri başdan onu deyək ki, bu səhifələrin yaranmasında müasir mütəfəkkirlərə borclu olduğumuzu etiraf etməyi elementar vicdan tələb edir. İşin gedişində mənim onlardan sitatlar gətirib müzakirə edəcəyimi gizlətməyin mənası yoxdur.

Eyni zamanda, qeyd etməyə dəyər ki, indiyə qədər nəticə kimi qəbul edilən absurda burada başlanğıc maddə kimi baxılır. Bu mənada mənim düşüncələrim ilkin hazırlıq mərhələsindədir: onların hara aparıb çıxaracağını indidən demək olmaz. Siz burada ruhi xəstəliklərin yalnız təmiz təsvirini tapacaqsınız, ona hələ nə metafizika, nə də inanclar qarışmamışdır. Kitabdakı mövzu sərhədləri və onun yeganə öhdəliyi belədir.

# ABSURD VƏ İNTİHAR

Yalnız bir ciddi fəlsəfi problem vardır – intihar problemi. Həyatın yaşamağa dəyər olub-olmadığına qərar vermək fəlsəfənin əsas sualına cavab vermək deməkdir. Bütün qalan məsələlər, o cümlədən dünyanın üçölçülü olub-olmaması, idrakın doqquz, yaxud on iki kateqoriya tərəfindən yönləndirilib-yönləndirilməməsi ikinci dərəcəli məsələlərdir. Oyunun şərti belədir: hər şeydən əvvəl cavab vermək lazımdır. Əgər Nitsşenin dediyi kimi, nüfuzlu bir filosofun nümunə olmasının vacibliyi doğrudursa, onda cavabın əhəmiyyəti də aydındır – bunu müəyyən fəaliyyətlər izləyəcəkdir. Ürək bu dəlili hiss edir, ancaq ağıla aydınlıq gətirmək üçün ona nüfuz etmək zəruridir.

Bir məsələnin başqasından daha vacib olduğunu necə müəyyənləşdirmək olar? Həmin məsələni həll etmək üçün lazım olan əməliyyata əsasən mühakimə yürütmək olar. Mən hələ görməmişəm ki, bir adam ontoloji[1] baxışlarına görə öldürülsün. Qaliley vacib bir elmi həqiqəti üzə çıxardı, lakin bu, onun həyatı üçün təhlükə yaratdıqda qeyri-adi çeviklikl ə ondan əl çəkdi. Müəyyən mənada, o haqlı idi, belə şeyə görə tonqalda yanmağa dəyməzdi. Yer Günəş ətrafında,

[1] Ontologiya – idealist fəlsəfədə varlıq haqqında metafizik nəzəriyyə (tərc.)

yoxsa Günəş Yer ətrafında fırlanır – bunun bir fərqi var idimi? Qısası, bu, boş bir sualdır. Eyni zamanda, mən görürəm ki, bir çox insan həyatın yaşamağa dəymədiyini düşünərək ölür. Həm də mənə məlumdur ki, bəziləri öz həyat qayəsi hesab etdikləri ideya, yaxud illüziya naminə ölməyə hazırdır. Belə çıxır ki, bu halda yaşamaq səbəbi ölüm səbəbi imiş! Ona görə də mən həyatın mənası haqqındakı məsələni bütün məsələlərdən vacib hesab edirəm. Bəs ona necə cavab vermək lazımdır? Bütün mövcud problemlər barədə düşündükdə mən yalnız ölüm təhlükəsi olan, yaxud ehtirasla yaşamaq arzusu olan məsələni qalanlarından daha vacib hesab edirəm. Belə görünür ki, burada iki metod vardır: La Paliss və Don Kixot metodları. Yalnız həyəcan və aşkarlıq tarazlaşdıqda biz emosiyaya və aşkarlığa təsir edə bilirik. Klassik dialektik təlimin bu ciddi və eyni zamanda da təcrübə ilə silahlanmış mövzusuna baxdıqda demək lazımdır ki, sağlam mahiyyətə və simpatiyaya əsaslanan iddiasız ağıla güzəştə getmək zəruridir.

İntihara istisnasız olaraq həmişə sosial fenomen kimi baxılmışdır. Biz isə əksinə, intiharın lap əvvəldən fərdi düşüncə ilə bağlı olduğunu qeyd edirik. İntihar əlkimyaçıların Böyük Amalına oxşar olaraq ürəyin dərin səssizliyində hazırlanır. İnsanın özü onun haqqında heç nə bilmir, lakin günlərin birində, o, özünü güllələyir, yaxud yandırır. İntihar etmiş bir ailə başçısı haqqında mənə danışırdılar ki, o, beş il əvvəl

qızını itirəndən sonra çox dəyişmişdi, bu hadisə onun içini yeyirdi. Burada bundan daha dəqiq söz tapmaq çətindir. Pis düşüncənin başlanması kifayət edir ki, içəridən ürəyini gəmirsin. Başlanğıcda ictimaiyyətin rolu böyük olmur. Qurd insanın öz ürəyində olur, onu məhz orada axtarmaq lazımdır. Şəxsi mövcudluqdan ölümə aparan yolu hiss etməkdən fikri yayındıran bu ölümcül oyunu başa düşmək zəruridir.

İntihar üçün səbəblər çoxdur və onlardan ən üzdə olanları, bir qayda olaraq, heç də doğru olmur. İntihar nadir hallarda refleksin nəticəsi olur, amma bu hipotez də istisna deyildir. Məsələnin bu cür həll edilməsi, demək olar ki, həmişə öz-özünə hesabat verməməyin nəticəsində baş verir. Qəzetlər "intim acılar", "sağalmaz xəstəliklər" və s. barədə yazırlar. Belə izahatlar tam qəbul olunandır. Amma aydınlaşdırmaq yerinə düşərdi ki, xiffət çəkən adamın dostu ona qarşı laqeyd olmuşdurmu – əgər belə olmuşsa, onda günahkar məhz odur. Çünki bir kiçicik diqqət kifayət edə bilərdi ki, intihar edəcək adamın ürəyindəki xiffət, qüssə üzə çıxsın.

Fürsətdən istifadə edərək bu essedə də əsas yer tutan mühakimələrə aid münasibəti qeyd edək: intihar bəzən daha hörmətəlayiq səbəblərlə də bağlı ola bilər. Çin inqilabı zamanı çoxlarının "etiraz əlaməti" olaraq özünü öldürməsi buna misal ola bilər.

Həyat-ölüm püşkatmasında ölümün seçilməsi kimi hissolunmaz hərəkət anını duymaq nə qədər çətin olsa da, fəaliyyət və amalın özündən nəticə çıxar-

maq bir o qədər asandır. Eynilə melodramda olduğu kimi, intihar məlum mənada etirafla eynigüclüdür. Özünü öldürmək o deməkdir ki, artıq həyatın bitdiyini, onun anlaşılmaz olduğunu etiraf edirsən. Amma uzun-uzadı analogiya aparmadan vərdiş etdiyimiz adi dilə qayıtsaq, intihar edən adam "Həyat – onu yaşamağa dəyməz!" deyimini etiraf edir. Təbii ki, yaşamaq həmişə çətindir. Biz müxtəlif səbəblərə görə, hər şeydən öncə isə vərdiş sayəsində bizdən tələb olunan fəaliyyətimizi davam etdiririk. Könüllü ölüm isə, instinktiv olsa da, bu vərdişlərin əhəmiyyətsizliyini, hansısa səbəbə görəsə həyatı davam etdirməyin zəruriliyinin dərk olunmamasını, əzabların faydasızlığını etiraf etməkdir.

İnsanı ağıllı həyat üçün zəruri olan xəyallardan məhrum edən bu qarışıq hiss nə olan şeydir? Lap axmaqcasına olsa da, izah oluna bilən dünya bizə tanış dünyadır. Amma kainat qəfildən idrak və illüziyadan kənarda qalırsa, onda insan özünü orada kənar, yad hiss edir. İnsan əbədilik qovulmuşdur, ona görə də itirdiyi, yaddaşında yaşatdığı vətənindən, həsrətini çəkdiyi torpaq barədəki ümidlərindən məhrum olmuşdur. Xüsusilə də absurdluq hissiyyatı insan və həyat, aktyor və dekorasiya arasındakı uyğunsuzluq, uyuşmazlıqdır. İntihar barədə düşünən insanların hamısı bu hisslə faniliyin cazibəsi arasındakı birbaşa əlaqənin mövcudluğunu dərhal anladıqlarını etiraf edirlər.